## Vergi ödəyiciləri üçün treninq

*Elekton qeydiyyatın tətbiqi qeydiyyata çəkilən xərcləri minimuma endirir*

Bu günlərdə Bakı Şəhər Vergilər Departamentinin inzibati binasında vergi ödəyiciləri ilə «Kommersiya hüquqi şəxslərin elektron qeydiyyatı» və «Elektron ödəniş sisteminin tətbiqi» mövzularına həsr olunan treninq keçirilmişdir. Vergi ödəyicilərinə xidmət idarəsinin şöbə rəisi Məhərrəm Əmiraslanov Vergilər Nazirliyinin elektron xidmətlər sahəsində gördüyü işlər barədə vergi ödəyicilərinə məlumat vermişdir. Bildirilmişdir ki, AVİS-in tətbiqi, vergi ödəyiciləri ilə yazışmaların e-formada həyata keçirilməsi, bəyannamələrin elektron formada qəbulu və s. məsələlər vergi ödəyicilərinin işini daha da yüngülləşdirmiş, vaxt itkisinin qarşısını almışdır.

Vergi ödəyicilərinə xidmət idarəsinin rəisi Elman Dadaşov Vergilər Nazirliyi tərəfindən fiziki şəxslərin elektron qeydiyyatı ilə yanaşı, kommersiya hüquqi şəxslərin də elektron qeydiyyatının həyata keçirildiyini vurğulamışdır. Qeyd olunmuşdur ki, təşkil olunan treninq vergi ödəyicilərinin hüquqi şəxslərin e-qeydiyyatı və elektron ödəniş sisteminin tətbiqi barədə daha ətraflı məlumatlandırılması məqsədini daşıyır. Elektron ödəniş sisteminin tətbiqi layihəsinin hazır olduğunu deyən idarə rəisinin sözlərinə görə, sistemin mart ayının sonu, aprel ayının əvvəllərindən işə düşəcəyi planlaşdırılır.

Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsinin rəis müavini Samir Seyidəhmədli bildirmişdir ki, ölkədə sahibkarlığın sürətlə inkişaf etdirilməsi, daha əlverişli biznes mühitinin formalaşdırılması məqsədilə sahibkarlıq fəaliyyəti subyektlərinin «bir pəncərə» prinsipi ilə qeydiyyatının tətbiqi nəticəsində 194433 sahibkarlıq subyekti qeydə alınmışdır ki, bunun da 19638-i kommersiya hüquqi şəxs olmuşdur.

S.Seyidəhmədlinin sözlərinə görə, əvvəllər qeydiyyatla bağlı xərc 270 manat olduğu halda, «bir pəncərə»nin tətbiqindən sonra bu rəqəm 2,4 dəfə aşağı düşmüş və təqribən 2 milyon manata yaxın vəsaitə qənaət olunmuşdur: «Elekton qeydiyyatın tətbiqi sahibkarlıq subyektlərinin qeydiyyatına çəkilən xərcləri minimuma endirməklə daha 1 milyon manat vəsaitə qənaət edilməsinə səbəb olacaq». Ölkə başçısının 23 may 2011-ci il tarixli «Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» fərmanına əsasən, Vergilər Nazirliyi tərəfindən əhaliyə göstərilən elektron xidmətlərin genişləndirilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilir. Natiq çıxışı zamanı artıq istənilən vətəndaşın elektron imza almaqla qeydiyyat orqanına gəlmədən Vergilər Nazirliyinin elektron saytına daxil olmaqla onlayn rejimdə kommersiya hüquqi şəxsinin elektron dövlət qeydiyyatının həyata keçirilməsi üçün müraciət edə və real vaxt rejimində qeydiyyata alına bildiyini vurğulamışdır. Elektron qeydiyyat zamanı yalnız MMC təşkilati-hüquqi formasının seçilməsi barədə danışan rəis müavini qeyd etmişdir ki, bunun səbəbi son 4 ildə qeydiyyata alınan kommersiya hüquqi şəxslərin 94,4%-nin təşkilati-hüquqi formasının MMC olması ilə bağlıdır. S.Seyidəhmədli qeyd etmişdir ki, İnzibati Xətalar Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, hüquqi şəxs statusu almaq istəyən qurumun, xarici hüquqi şəxsin nümayəndəlik və ya filialının dövlət qeydiyyatına alınması zamanı yanlış məlumatların verilməsinə görə fiziki şəxslər yeddi yüz, hüquqi şəxslər dörd min manat məbləğində cərimə edilir.

Elektron qeydiyyatın sürətli və adi formada həyata keçirildiyini deyən rəis müavini, bu iki forma barədə də vergi ödəyicilərini məlumatlandırmışdır.

Vergi ödəyicilərinə xidmət idarəsinin şöbə rəisi Ramil Şəkərov təqdimatla çıxış edərək, hüquqi şəxsin elektron qeydiyyatı və elektron ödəniş sisteminin tətbiqi prosesini əyani şəkildə vergi ödəyicilərinin diqqətinə çatdırmışdır.

Treninqdə müzakirə olunan məsələlər barədə görüşə qatılan vergi ödəyicilərinin də fikirlərini öyrəndik. Söhbətləşdiyimiz vergi ödəyiciləri treninqdə səsləndirilən məlumatlar əsasında hüquqi şəxsin elektron qeydiyyatı və elektron ödəniş sisteminin tətbiqi prosesi haqda ətraflı məlumat əldə etdiklərini bildirdilər. «A+A» şirkətlər qrupunun nümayəndəsi Züleyxa Mustafayeva treninqin işini yüksək qiymətləndirdiyini və ona aydın olmayan bir sıra sualların cavabını tapdığını dedi. Xüsusilə elektron ödəniş sistemi layihəsini yüksək qiymətləndirən vergi ödəyicisi, bu sistemin ödənişlərin daha rahat formada həyata keçirilməsinə imkan yaratdığını qeyd etdi.

«Nurgün» şirkətinin nümayəndəsi Rəna Mustafayeva elektron qeydiyyatın həm vaxt, həm də maliyyə baxımından yeni yaranan vergi ödəyicisi üçün böyük kömək olduğunu bildirdi: «Yeni qeydiyyatdan keçəcək vergi ödəyicisi üçün bu xidmətlər çox əlverişlidir. Treninq vasitəsilə vergi ödəyicisi olaraq xeyli məlumat əldə etdik».

Aytən NƏBİYEVA